# Ucuz kitablar

*Esse*

**Qiyməti ucuz olan kitablar ildən-ilə çoxalır. Ehtiyacı olan adamlar həmin kitabları əldə edirlər. Hədiyyə - bax bu başqa məsələdir. İmkanlı adamlar çox vaxt uşaqlara, böyüklərə, dostlarına kitab hədiyyə edirlər. Bahalı əşyalar da hədiyyə edirlər, lazımsız əşyalar da.**

Məsələn, konfirmasiya günündə (müəyyən yaş həddinə çatmış yeniyetmələrin kilsə icmasına qəbul ayini) qızlara aid ədəbiyyat və ya buna bənzər başqa şeylər verirlər. Lakin aşağı, kasıb təbəqənin nümayəndələrinə, qulluqçulara, xadimələrə kitab hədiyyə etmək hələ çox da qəbul olunmamışdır. Müxtəlif ibrətamiz nəşrlərin, dini və ya siyasi təbliğat kitabçalarının xoşniyyətlə paylanılması bəzən insanlarda gülüş, bəzən isə əsəb doğurur. Son zamanlar aşağı səviyyəli bulvar ədəbiyyatı təqib olunur. Və görünür bu heç də nəticəsiz deyil. Kabuslardan və xəfiyyələrdən danışılan o məşhur əsərlər kimi maraqsız və estetik cəhətdən tələbatsız olan dini tərənnüm edən əsərlərin işi o birilərinə baxanda bir az babatdı. Obyektiv və qərəzsiz olan bir adam üçün onlar darıxdırıcı, lazımsız və xoşagəlməzdir; öz bezdirici tendensiyaları ilə onlar xeyirdənsə ziyan gətirərək əhval-ruhiyyəyə mənfi təsir göstərirlər. Əgər mən evimizdəki xidmətçiyə "Dindar İda və ya xidmətçinin həyatında Tanrı xeyirduası" kitabını hədiyyə etsəm, ona məktəbli kimi dərs keçib tərbiyə etdiyimi düşünəcək. Bu şah əsərin üzünü ya ümumiyyətlə, açmayacaq, ya da oxusa da nifrətlə oxuyacaq. Həm də ki, mənim heç bu kitabı oxumadığımı düşünəcək. Əgər Hothelf, Keller, Raabenin hədiyyə etsəm o ən azından bunu adi qəbul edəcək, ona heç bir təzyiq etmədiyimi, tərbiyə etmədiyimi düşünərək çox güman ki, oxuyacaq.

Adətən, insanlar bir-birlərinə yeni ildə hədiyyələr verirlər. Xidmətçilərə də yeni paltar, siqar simiclik etmədən hədiyyə olunur. Axı bunlardansa balaca bir kitab da vermək olardı. Bu kitab, bəlkə də, ən pis halda diqqətdən kənarda qalardı, bəlkə də, kiməsə sevinc gətirərdi. Kitabı oxumağa borc verməksə tamamilə başqa məsələdir. Kimdənsə oxumağa kitab götürən adam onu tezliklə oxuyub geri qaytarmalıdır; kitabın özünə məxsus olmağının ayrı ləzzəti var. Kitabı hər hansı bir şəkildə sırınmağındansa, kiməsə hədiyyə edəndə daha yaxşı oxunulur.



İndiki dövrdə kitab hədiyyə etmək heç də çətin deyil. Bir neçə pfenniqə yaxşı şeylər əldə etmək olar. Dostlarımdan bir çoxlarında getdiyi, qonaq qaldığı yerlərdə özləriylə yola götürdükləri ucuzlu kitabları qoymaq adəti vardır. Reklam xətrinə qulluqçulara çatan həmin bu kitabların əsl savadlı adamlar üçün olduğunu düşünürlər.

Dahi yazıçıların əsərlərinin heç də "hər kəs üçün" nəzərdə tutulmadığını, onların xamlamaq, qırıldatmaq üçün olmadığının hər gün bir yeni təsdiqini tapırıq. Cəfəngiyatdır. Hotfrid Kellerin (alman yazıçısı) novellasının gözəlliyindən heç bir anlayışı olmayan kəmsavad insanlar bu heakayənin predmetindən zövq alacaq və yaddaşında ondan mütləq nəsə qalacaq. Axı "Robinzon" və hətta uşaqlarımızın həvəslə oxuduqları "Qulliver" də bir zamanlar ədəbi insanların oxuduğu əsl ədəbiyyat nümunələri idi. Adi oxucular ədəbi əsərdəki gözəllikləri görmürlər. Bu fikir geniş yayılmış olsa da, yanlışdır. Dəfələrlə biz ev tikəndə, bağ salanda nə qədər təkmilləşsək də, yenidən köhnə, kəndli üsullarına müraciət edirik və beləliklə, hər bir gözəliyin "savad" adlanan bir şeydə yox, nəsə ayrı bir yerdə olduğunu anlayırıq. Və əsl yazıçının gözəl əsərlərini biz sadə oxuculara təqdim edə bilərik. "Faust"u və ya "Don Kixot" oxuyan sadə bir oxucu böyük, seçilmiş kitabxanası olan oxucudan daha böyük zövq, daha böyük maraqla oxuyur. İohan Xebelin (alman yazıçısı) "Ailəcanlı"sında toplanmış təqvim hekayələri ən azından yazıçının öz vətənində xalq arasında kök salmışdır. Məncə, bu nə vaxtsa alman novellaçıları tərəfindən yaradılmışlardan daha yaxşıdır.

Daha çox uşaqlara kitab hədiyyə olunmalıdır. Məcburi mütaliənin təhlükəsi burada bir qədər azdır; axı bir az ağıllı valideynlərin bir az sağlam uşaqları tez bir vaxtda qətiyyətlə ona lazım olmayanı, ögey olanı inkar edəcək. Mən uşaqları çox mütaliə etdirilməsinin də tərəfdarı deyiləm. Kitabları onları oxumağa ehtiyac və istək olanda hədiyyə etmək lazımdır. Yeni ildə və ya ad günündə ucuz qiymətə olan xalq nağılları kitabları verməkdənsə, uşağa adətən bir neçə bahalı şəkilli kitab hədiyyə edirlər ki, bəlkə, bunları il ərzində oxuyar. Mütləq nəzarət etmək lazımdır ki, hədiyyə etdiyimiz kitablar onların görmə qabiliyyətini zəiflətməsin.

**Rus dilindən tərcümə edən:**
**Xanım AYDIN**

Kaspi.-2016.-26-28 noyabr.-S.15.